BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Almaniyada 23 fevralda baş tutacaq Bundestaq seçkilərinin mümkün nəticələri

Sultan Zahidov

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

FEVRAL 2025

# Almaniyada 23 fevralda baş tutacaq Bundestaq seçkilərinin mümkün nəticələri

Ötən ilin 6 noyabr tarixində kansler Olaf Şoltsun Azad Demokratik Partiyanın lideri Kristian Lindneri (FDP) maliyyə naziri vəzifəsindən kənarlaşdırdığını elan etməsindən sonra Sosial Demokratlar (SDP) və Yaşıllar partiyasından ibarət "işıqfor koalisiyası" daxilində, xüsusilə ölkənin iqtisadi siyasəti ilə bağlı ciddi fərqlərin olması səbəbindən yaranan böhran daha da dərinləşdi. Azad Demokratik Partiyanın hökümətdən çıxması nəticəsində azlığın koalisiyasına rəhbərlik edən Olaf Şoltsa dekabrın 16-da Bundestaq tərəfindən etimadsızlıq votumu göstərildi.[1] Dekabrın 27-də isə Almaniyanın Prezidenti Frank-Valter Ştaynmayer parlamenti buraxaraq fevralın 23-nə yeni seçkilər təyin etdi. Qeyd etmək lazımdır ki, İkinci Dünya müharibəsindən sonra dördüncü dəfədir ki, Almaniyada parlament vaxtından əvvəl buraxılır. Daha əvvəl oxşar hadisə 1972-ci ildə Villi Brandt, 1982 – Helmut Kol və 2005-ci ildə Gerhard Şröderin kanslerliyi dönəmində yaşanmışdı.[2]

## Seçkilərdə iştirak edəcək partiyaların Kansler vəzifəsi üçün irəli sürdüyü namizədlər və onların seçki proqramları

1. **Almaniya Sosial Demokrat Partiyası (SPD) – Olaf Şolts:** Hazırkı kansler Olaf Şolts noyabrın sonunda baş tutan partiya iclasında qızğın müzakirələrdən sonra icra komitəsi tərəfindən kansler namizədi kimi təsdiqləndi. Daha əvvəl populyarlığı get-gedə artan müdafiə naziri Boris Pistoriusun namizədliyi də müzakirə olunsa da, Pistorius Kansler postuna iddia etmədiyini elan etdi.[3] Özünün seçki kampaniyası proqramında SPD diqqəti əsasən iqtisadiyyatın dirçəldilməsi və işsizliyin azaldılmasına, ailələrin və işçilərin rifahının qaldırılmasına, pensiya islahatlarına ayırır.[4] Bununla belə, Olaf Şolts və partiyası onun dövründə Almaniyada enerji qiymətlərinin sürətlə artması, ölkə iqtisadiyyatının ard-arda iki il düşüş yaşaması, sosial problemlərin mövcudluğu və miqrasiya məsələlərinin hələ də tam həllini tapmaması səbəbindən əvvəlki populyarlığını xeyli itirib və növbəti seçkilərdə qalib gələcəyi real görsənmir. Digər tərəfdən, Şoltsun Ukrayna siyasətindəki mövqeyi və Almaniyanı Ukraynaya ABŞ-dən sonra ikinci ən böyük dəstəyi göstərən dövlət halına

---

[1] https://www.bbc.com/news/articles/ckg36pp6dpyo

[2] https://www.voanews.com/a/germany-s-president-dissolves-parliament-sets-national-election-for-feb-23-/7915727.html

[3] https://www.tagesschau.de/inland/bundestagswahl/parteien/kanzlerkandidaten-bundestagswahl-100.html

[4] https://mehr.spd.de/programm/

gətirməsi də SPD-nin bəzi tərəfdarları tərəfindən birmənalı qarşılanmadı. Qeyd edək ki, Şolts dekabrın 31-dəki çıxışında bundan sonra da Ukraynaya dəstəyini davam etdirəcəyini söyləmişdi. [5]

2. **Xristian Demokrat və Xristian Sosial İttifaqı (CDU/CSU) – Fridrix Merts:** Ötən il CSU-nun lideri Markus Zöderlə razılıq əldə olunduqdan sonra Merts Birliyin rəsmi namizədi statusunu əldə etmiş oldu.[6] İctimai rəylərə əsasən hazırda kansler vəzifəsinə ən real namizəddir. Partiyanın seçki proqramında diqqətçəkən məqamlar sırasında AES-lərin yenidən işə salınması, gəlir vergisinin azaldılması, marixuananın leqal istifadəsinin ləğvi, miqrantlar üçün üç ildən sonra vətəndaşlıq alma imkanının ləğvi, xarici siyasətdə isə Ukrayna və İsrailə dəstəyin davam etdirilməsini qeyd etmək olar. Partiya eyni zamanda Bundesveri gücləndirmək və "yenidən təşkil etmək" və bunun üçün, hətta qoşunların sayını 180.000-dən 230.000-ə qədər artırılması niyyətini bəyan edib.[7] Partiyanın lideri Fridrix Mertsin bir zamanlar Atlantikçilik və ABŞ-Almaniya dostluğunu təbliğ edən Atlantik-Brücke Assosiasiyasına rəhbərlik etməsi onun ABŞ və NATO ilə münasibətlərə əhəmiyyət verdiyinin bariz göstəricisidir.[8] Bununla belə, Donald Trampın Avropa İttifaqı ilə ticarət müharibəsini tənqid edən Mertsin yeni ABŞ administrasiyası ilə də enişli-yoxuşlu əlaqələrə malik olacağını ehtimal etmək olar.
3. **Birlik 90/Yaşıllar – Robert Habek:** Hazırkı vitse-kansler və iqtisadiyyat naziri noyabr ayında partiyanın 96.5 faizinin etimadını qazanaraq kansler postuna namizəd oldu. Partiyanın seçkiqabağı proqramında əsas diqqət iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinə, Avropanın təhlükəsizliyinin möhkəmləndirilməsinə, rəqəmsallaşma, elektrikə olan vergilərin azaldılmasına, təhsil, nəqliyyat və s. məsələlərə yönəlib. Xarici siyasətdə ənənəvi Atlantikçi mövqe sərgiləyən "Yaşıllar" Rusiya və Çinə qarşı sərt ritorikaya malikdirlər. Bununla belə, "Yaşıllar"la hazırkı ABŞ administrasiyası arasında əsasən iqlim dəyişikliyi ilə bağlı məsələlərdə ciddi fikir ayrılığının olacağını da istisna etmək olmaz.[9]
4. **Almaniya üçün Alternativ (Afd) – Alis Vaydel:** İfrat sağçı və avroskeptik ideyaları rəhbər tutan AfD ictimai rəylərdə hazırda CDU/CSU-dan sonra ikinci yerdə dayanır. 2021-ci il seçkilərindən etibarən, partiya öz populyarlığını

[5] https://english.nv.ua/nation/amid-growing-anxiety-scholz-pledges-continued-backing-for-ukraine-s-fight-50478214.html
[6] https://www.tagesschau.de/inland/innenpolitik/merz-kanzlerkandidat-union-100.html
[7] https://www.bundestagswahl-bw.de/wahlprogramm-cdu
[8] https://www.atlantik-bruecke.org/die-atlantik-bruecke/vorstand/vorsitzende-der-atlantik-bruecke-seit-1952/
[9] https://www.gruene.de/artikel/zusammen-wachsen

təxminən 2 dəfə artırıb. Bununla belə, əsas partiyalardan heç biri hazırda AfD ilə koalisiya qurmaq istəmədiyindən partiyanın gələcək hökümətə daxil olmaq ehtimalı çox aşağıdır.[10] Partiyanın lideri Alis Veydel bu yaxınlarda Bloombergə verdiyi müsahibədə əsas diqqəti sərhədlərə nəzarətin gücləndirilməsinə (qeyri-qanuni immiqrasiya ilə mübarizə aparmaq üçün), vergilərin azaldılmasına, AES-lərin yenidən işlək vəziyyətə gətirilməsinə yönləndirəcəyini qeyd etmişdi.[11] Digər tərəfdən, o, Avropa İttifaqının demokratik olmadığını və əgər ittifaqda islahatlar baş verməzsə, (hər bir dövlətə komissiyanın qərarlarına veto qoymaq haqqının verilməsi) **Dexit**-in (Almaniyanın İttifaqdan çıxması) reallaşmalı olduğunu təbliğ edir.[12] O, eyni zamanda Almaniyanın Rusiyaya qarşı sanksiyalar tətbiq etməsini və ümumiyyətlə, Rusiya-Ukrayna müharibəsində tərəf seçməsini yanlış adlandıraraq ölkəsinin Ukraynaya hərbi yardımı dayandırmasına çağırış edib.[13] **Qeyd edək ki, bu partiyanın üzvləri əvvəllər bir neçə dəfə (2017, 2020-ci illərdə) Ermənistana və qeyri-qanuni şəkildə Qarabağa səfərlər etmiş, separatçı rejimin nümayəndələri ilə görüşlər keçirmişlər.**[14] [15] **Həmin vaxt səfər etmiş nümayəndələr arasında olan Ştefan Koyter və Şteffen Kotre bu gün də Bundestaqın deputatlarıdırlar.** Onu da qeyd etmək gərəklidir ki, Donald Trampın siyasətini dəstəkləyən partiyanın öz tərəfdarları ilə görüşlərindən birinə İlon Maskın da qoşulması Almaniyada böyük rezonans doğurmuş və Mask bu səbəbdən ciddi tənqidə məruz qalmışdı.[16]

5. **Azad Demokratik Partiya (FDP) – Kristian Lindner:** Son vaxtlar partiyanın nüfuzu azalmağa doğru gedir. Hazırkı ictimai sorğulara əsasən partiyanın 5 faizlik baryeri aşaraq parlamentə düşməsi belə ciddi şübhə doğurmaqdadır. Partiyanın seçki proqramında təhsilin inkişafına, liberal demokratiya, insan hüquqları və qanunun aliliyinin təmininə, kiçik və orta sahibkarların dəstəklənməsinə, səhiyyə sahəsində islahatlara, ölkənin müdafiə imkanlarının möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verilir. Xarici siyasətdə partiya Ukraynaya tam dəstəyin göstərilməsinin, Rusiyaya qarşı effektiv müqavimətin

[10] https://www.tagesschau.de/inland/bundestagswahl/parteien/kanzlerkandidaten-bundestagswahl-100.html
[11] https://www.youtube.com/watch?v=IeYB_Hmsu84
[12] https://www.theguardian.com/world/2024/jan/22/germany-far-right-afd-leader-alice-weidel-eu-exit-campaign
[13] https://medium.com/@FromLagosto/alice-weidels-bold-stance-no-more-funding-or-arms-for-ukraine-9e0d92df2545
[14] https://www.azatutyun.am/a/29972776.html
[15] https://tass.ru/mezhdunarodnaya-panorama/9759245
[16] https://www.tagesschau.de/inland/bundestagswahl/parteien/musk-afd-wahlkampfshow-100.html

təşkilinin və Çindən olan asılılığı azaltmaq üçün bu ölkə ilə münasibətlərin korrektə edilməsinin (Tayvanı dəstəkləmək və s.) tərəfdarıdır.[17]

6. **Sol Partiya (Die Linke) – Yan Van Aken və Haydi Rayhinnek:** Sol Partiya seçki kampaniyasına iki həmsədrlə daxil olur. İctimai sorğularda hələ ki, 4% civarında populyarlığa malik olan partiyanın seçki baryerini aşmaq ehtimalı aşağı görsənir. Partiyanın seçki proqramında əsas diqqət sosial ədalətə, yoxsulluqla mübarizəyə, iqlim dəyişikliyi, feminizm, imperializmlə mübarizə və sülhə yönlənmişdir.[18] Xarici siyasətdə partiya ABŞ və NATO-ya skeptik yanaşması, Almaniyanın Ukraynaya yardım göstərməməsi fikri və Türkiyəyə qarşı tənqidi mövqeyi ilə seçilir.
7. **Sara Vaqenknext Alyansı (BSW) – Sara Vaqenknext:** Təxminən bir il əvvəl yaradılan ifrat solçu BSW hazırkı sorğularda 4 faizlik populyarlığa malik olduğundan partiyanın bundestaqa daxil ola bilməmək ehtimalı mövcuddur. Partiyanın rəsmi seçki proqramında mövcud iqtisadi siyasətin 180 dərəcə dəyişdirilməsi, CO2 emissiyasına görə vergilərin ləğvi, sosial təminat proqramlarında radikal islahatlar, immiqrasiyanın məhdudlaşdırılması və digər məsələlər xüsusi əhəmiyyət kəsb edir.[19] Avrointeqrasiyaya skeptik yanaşan partiya xarici siyasətdə Ukraynaya dəstəyin dərhal dayandırılmasını, ABŞ-la əlaqalərə yenidən baxılmasını, (anti-ABŞ və anti-NATO mövqeyi) Rusiya ilə yaxın münasibətləri (Bu mövqeyə görə ona Almaniyanın ən ruspərəst partiyası da deyirlər) dəstəkləyir.[20]

## Seçkilərlə bağlı ictimai rəy sorğularının nəticələri

ARD-DeutschlandTREND-in ən son yanvarın 25-də baş tutan sorğusuna görə hazırda CDU/CSU İttifaqı 31 faiz səslə liderdir, ikinci yerdə 20 faizlə Afd, üçdə 15 faizlə SPD, daha sonra isə 14 faizlə Yaşıllar, 5 faizlə BSW və son olaraq isə hər ikisi 4 faiz populyarlığa malik olan FDP və Sol Partiyası gəlir.[21] Der Spiegelin araşdırmasına görə isə nəticə cüzi şəkildə fərqlənir: 1. CDU/CSU – 30% 2. Afd – 21% 3.SPD – 16% 4. Yaşıllar – 14% 5. BSW – 4% 6. Sol Partiya – 4% 7. FDP – 4% [22]

---

17 https://www.fdp.de/das-wahlprogramm-der-freien-demokraten-zur-bundestagswahl-2025
18 https://www.die-linke.de/bundestagswahl-2025/wahlprogramm/
19 https://www.bundestagswahl-bw.de/wahlprogramm-bsw
20 https://www.youtube.com/watch?v=tA96DbV8oFA
21 https://www.tagesschau.de/inland/deutschlandtrend
22 https://www.spiegel.de/politik/deutschland/sonntagsfrage-umfragen-zu-bundestagswahl-landtagswahl-europawahl-a-944816.html

Almaniyanın Yeni Sosial Cavablar üzrə İnstitutu INSA-nın ən son sorğusunun nəticələri isə aşağıdakı vəziyyəti xarakterizə edir:

**CDU/CSU – 30% 2. Afd – 22% 3. SPD 15.5% 4. Yaşıllar 12.5% 5. BSW – 6% 6. Sol Partiya – 4.5% 7. FDP – 4.5% 8. Digər partiyalar – 5%**

Kansler namizədi olan şəxslərin cəmiyyətdəki populyarlığına da toxunsaq Almaniyanın məşhur Forsa İnstitutunun ən son sorğusunun nəticələrini qeyd edə bilərik: 1**. Merts – 24% 2. Habek – 21% 3. Vaydel - 18% 4. Şolts – 16%** [23] Qeyd edək ki, Merts hələ ki, əksər sorğularda liderliyini qorumağa davam edir.

**Əgər seçkilərə qədər mövcud tablo ciddi dəyişikliyə məruz qalmasa bu rəqəmlərə əsaslanaraq CDU/CSU-nun böyük ehtimalla qalib gələcəyini və partiyanın lideri Fridrix Mertsin yeni kansler olacağını proqnozlaşdırmaq olar**. Bununla belə partiya mütləq çoxluğu qazana bilməyəcəyindən digər bir və ya iki partiya ilə koalisiya yaratmalı olacaqdır.

## Seçkilər nəticəsində yarana biləcək mümkün koalisiyalar

Ən son ictimai sorğulara əsaslansaq, 4 partiyanın Bundestaqa mütləq şəkildə daxil olacağını ehtimal etmək olar. Bu partiyalar CDU/CSU, SPD, "Yaşıllar" və AfD-dir. BSW, FDP və Sol Partiyanın isə 5%-lik baryeri keçə bilməmək ehtimalı mövcuddur. Digər vacib məqam isə mövcud partiya liderlərinin hər birinin AfD ilə koalisiya qurmaq istəyində olmamalarını bəyan etməsidir. 30 yanvar tarixində CDU/CSU lideri Fridrix Merts növbəti dəfə AfD ilə əməkdaşlıq etməyəcəklərini bəyan etdi. Baxmayaraq ki, eyni gündə partiya tərəfindən təklif edilmiş miqrasiya ilə bağlı sərt qanun layihəsi məhz AfD-nin yardımı ilə Bundestaq tərəfindən qəbul edildi.[24] CDU/CSU əgər Afd ilə əməkdaşlıq etməsə, o zaman böyük ehtimalla SPD ilə koalisiya hökuməti yaratmalı olacaqdır və belə olduqda Almaniya tarixində beşinci Böyük Koalisiya (Schwarz-Rote Koalition) yaranacaqdır. Digər tərəfdən, əgər hər iki partiyanın birgə qazandığı səslər də parlamentdə çoxluğu təmin etməyə kifayət etməsə, o zaman CDU/CSU, SPD və "Yaşıllar"dan ibarət üç partiyalı koalisiya (Keniya koalisiyası) hökuməti yarana bilər. Əgər SPD ilə danışıqlar uğursuz nəticələnərsə, o zaman CDU/CSU-nun "Yaşıllar"la birgə koalisiya hökuməti yaratması mümkündür.[25] YouGov-un araşdırmasına görə, Bundestaqda azı 316 nəfərlik yeri qazana bilmək üçün CDU/CSU-nun SPD ilə koalisiya hökuməti qurmaq ehtimalı böyükdür. [26] Digər tərəfdən, alman mediasında CDU/CSU və FDP arasında koalisiya hökumətinin

---

[23] https://www.n-tv.de/politik/Union-rutscht-nach-Asyl-Vorstoss-ab-AfD-legt-zu-article25520403.html

[24] https://www.spiegel.de/politik/deutschland/union-und-afd-friedrich-merz-bekraeftigt-ablehnung-einer-zusammenarbeit-mit-der-afd-a-d02a243f-78db-4e0a-bda0-6b7ea28de944

[25] https://www.zdf.de/nachrichten/politik/deutschland/umfragen-bundestagswahl-2025-100.html

[26] https://www.fr.de/politik/bundestagswahl-2025-koalitionen-umfragen-prognosen-regierung-buendnis-aktuell-93511681.html

qurulması ehtimalları səsləndirilsə də, FDP-nin son sorğularda 5% - dən də az etimad qazanması səbəbindən bu formatın baş tutacağı real görsənmir. Eyni zamanda, ən son hakimiyyətdə olan "İşıqfor" (SPD, Yaşıllar və FDP), "Böyürtkən" (CDU/CSU, SPD, BSW) və "Yamayka" (CDU/CSU,Yaşıllar və FDP) koalisiyalarının da reallaşması ehtimalları yüksək qiymətləndirilmir.[27]

## Nəticə

**Müxtəlif institutlar tərəfindən həyata keçirilən rəy sorğularının nəticələrinə əsasən, Almaniyada 23 fevralda baş tutacaq parlament seçkilərində CDU/CSU-nun qalib gələcəyi və beləcə partiyanın lideri Fridrix Mertsin yeni kansler olacağı ehtimalı kifayət qədər yüksəkdir. Onu da nəzərə almaq lazımdır ki, bəzən hər həftə baş tutan ictimai rəy sorğularının nəticələri uzun müddətdir, sabit olduğundan seçkilərin nəticələrinin tamamilə fərqli istiqamətdə dəyişəcəyi real görünmür.**

**Göstərilən faktorları yəni, 1. CDU/CSU-nun seçkilərdə mütləq çoxluğu qazana bilməsə də qalib gələcəyini 2. FDP-nin və Sol Partiyanın Bundestaqa daxil ola bilməyəcəyini 3. Heç bir partiyanın AfD ilə koalisiya hököməti yaratmaq istəyində olmadığını nəzərə alsaq, Almaniyada 23 fevral seçkilərindən sonra aşağıdakı koalisiyaların yarana biləcəyini proqnozlaşdırmaq olar**:

1. **CDU/CSU və SPD-dən ibarət Böyük Koalisiya;**
2. **CDU/CSU, SPD və "Yaşıllar"dan ibarət Keniya Koalisiyası;**
3. **CDU/CSU və "Yaşıllar"dan ibarət koalisiya.**

**Hər üç ssenarinin baş verəcəyi təqdirdə, Almaniya xarici siyasətində fundamental olmasa da, müəyyən dəyişikiliklər baş verə bilər. İlk növbədə, Almaniyada Ukraynaya dəstək və Rusiyaya müqavimət məsələsində daha sərt mövqe formalaşa bilər. Məsələn, uzun müddətdir ki, göndərilməsi Olaf Şolts tərəfindən bloklanan "Taurus" raketlərinin yeni koalisiya tərəfindən Ukraynaya ötürülməsi ehtimalı daha da artacaqdır. Digər tərəfdən, həm CDU/CSU, həm də "Yaşıllar"ın transatlantik bağlara önəm verdiyini nəzərə alsaq, xüsusilə təhlükəsizlik sahəsində ABŞ ilə əməkdaşlığın daha artırılması ehtimalı mövcuddur. Sözsüz ki, burada Trampın Avropa İttifaqı və Almaniya ilə bağlı mövqeyi də aparıcı rol oynayacaqdır. Eyni zamanda, Almaniyanın**

---

[27] https://web.de/magazine/politik/wahlen/bundestagswahl/bundestagswahl-2025-koalitionen-denkbar-40525924

**hərbi imkanlarını artıracağını və Avropanın təhlükəsizlik arxitekturasında daha fəal rol oynayacağını proqnozlaşıra bilərik.**

**Müəllif: Sultan Zahidov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**